***Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici dövlətlərlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsində mühüm önəm daşıyır, ölkəmizin dünyada nüfuzunu daha da artırır.***

# Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı uğurla inkişaf edir



Azərbaycanın bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən, Avropa İttifaqı ilə sıx əməkdaşlığında da bu məsələlər diqqətdə saxlanılır. Bununla bağlı bəzi məqamlara nəzər salaq. Əvvəlcə onu xatırladaq ki, Avropa İttifaqı ölkələri Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarıdır. Son 10 ildə Azərbaycanda əsas kapitala yönələn xarici investisiyaların yarıdan çoxu, qeyri-neft sektoruna birbaşa xarici investisiyaların isə 40 faizə yaxın hissəsi bu təşkilatın üzv dövlətlərinin payına düşüb.

Bütün bunlar Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafının ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərir. Məhz bunun nəticəsidir ki, respublikamızla bu qurum arasında əlaqələr enerji, investisiya, ticarət və s. sahələrdə yüksək səviyyədə inkişaf edir, bu beynəlxalq təşkilat Azərbaycanın yuxarıda vurğuladığımız kimi, əsas ticarət tərəfdaşlarından biri kimi tanınır.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı uğurla inkişaf edir

***Həqiqətən, siz bizim üçün mühüm enerji tərəfdaşısınız. Siz təkcə təchizat təhlükəsizliyi sahəsində deyil, həmçinin iqlim neytrallığı sahəsində də hər zaman etibarlı olmusunuz. İndicə imzaladığımız Anlaşma Memorandumu bizim enerji tərəfdaşlığımızı daha da gücləndirir.***

***Ursula Fon der LYAYEN***
***Avropa Komissiyasının Prezidenti***

***Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Planlarımızın icrası əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq. Əminəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var və planlaşdırdığımız bütün məsələlərin həllinə nail olacağıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin mətbuata bəyanatlarında da bu məsələ ətrafında geniş bəhs edilib. Dövlətimizin başçısının bəyanatında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində aparılan fəal əməkdaşlığın on beş ildən artıq tarixi olduğu bildirilib. İyulun 18-də tərəflər arasında təsdiqlənən memorandumdan əvvəl – 2006-cı ildə belə bir sənədin və 2011-ci ildə isə Cənub Qaz Dəhlizi ilə bağlı Birgə Bəyannamənin imzalandığı xatırladılıb.

Azərbaycan tərəfindən başlanan və Avropa İttifaqının, o cümlədən ölkəmizin tərəfdaşlarının dəstəklədiyi enerji layihələrinin Avropanın enerji xəritəsini tamamilə dəyişdiyini vurğulayan ölkə rəhbəri qeyd edib ki, respublikamız bu təşəbbüsün gerçəkləşməsinə əvvəlcə neft hasilatı ilə, daha sonra isə təbii qazın ixracı ilə başlayıb. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkilib. Bu, 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəməri sistemlərinin inteqrasiya olunması və bununla Azərbaycan təbii qazının Avropa qitəsinə çatdırılması reallaşıb.

Artıq iki ildən az müddətdir ki, Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Hər iki tərəf bu əməkdaşlığın müsbət faydasını artıq görür. Enerji təhlükəsizliyi məsələləri bu gün heç zaman olmadığı qədər önəm daşıyır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük uğurdur.

Prezident İlham Əliyev bəyanatında daha sonra deyib: "Bu il biz Azərbaycan ilə Avropa İttifaqı arasında bir çox sahələri əhatə edən, o cümlədən, neft, qaz və bərpaolunan enerji mənbələrini, hidrogeni, enerji səmərəliliyini və digər məsələləri nəzərdə tutan enerji dialoquna başlamışıq. Azərbaycanda bərpaolunan enerjinin istehsalı sahəsində böyük potensial Avropa İttifaqı tərəfindən artıq yüksək dəyərləndirilir. Biz külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlamışıq. Potensialımızla bağlı artıq ilkin qiymətləndirməni aparmışıq. Deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 qeqavata bərabərdir".

Ölkə rəhbəri, həmçinin Azərbaycanın gələcəkdə istifadə ediləcək yeni qaz yataqlarının, zəngin bərpaolunan enerji potensialının mövcudluğunu da diqqətə çatdırıb.

Prezident İlham Əliyev bəyanatında iyulun 18-də imzalanan memorandumun gələcək üçün bir növ yol xəritəsi olduğunu vurğulayaraq, Azərbaycanın əvvəlcə planlaşdırılan bütün məsələləri yüksək səviyyədə gerçəkləşdirdiyini, bundan sonra da böyük uğurlara imza atılacağına əminliyini diqqətə çatdırıb.

Dövlətimizin başçısının Azərbaycanın Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları, yeni dəniz limanı, bütün qonşularımızla ölkəmizi birləşdirən dəmir yolları olduğunu da xatırladılıb. Ölkə rəhbəri bu geniş infrastrukturun enerji qədər mühüm önəm daşıdığını qeyd edərək, belə bir şəraitin Avropa İttifaqı ilə Azərbaycan arasında ticari tərəfdaşlığa müsbət təsir göstərdiyini bildirib.

Burada bir məqamı da xüsusi vurğulamaq istərdik. Belə ki, hər bir ölkədə iqtisadi inkişaf siyasi amillərdən bilavasitə asılıdır. Azərbaycanda mövcud siyasi mühit iqtisadi inkişaf üçün müsbət təsirə malikdir. Başqa sözlə, güclü dövlət və güclü siyasi hakimiyyət milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün prinsipial əhəmiyyət daşıyır. İctimai-siyasi sabitliyin qorunub saxlanılması ölkəmiz üçün bu gün də imkanların daha da genişləndirilməsini şərtləndirir. Azərbaycan etibarlı tərəfdaş olaraq mövqeyini getdikcə gücləndirir. Balanslaşdırılmış uğurlu xarici siyasət ikitərəfli və çoxtərəfli iqtisadi əlaqələri gücləndirməyə əlverişli zəmin yaradır.

Müasir dünyada dövlətlər arasında bir-birləri ilə artıq hərbi deyil, bir çox hallarda məhz iqtisadi üsul və vasitələrlə mübarizə aparmaq aydın nəzərə çarpır. Azərbaycanın iqtisadi cəhətdən geniş manevretmə imkanları ona gələcəkdə bəzi dövlətlərə öz şərtlərini diktə etmək üçün şərait yaradır. Prezident İlham Əliyevin müasir dünya düzəninin iqtisadi və siyasi "oyun qaydaları"na dərindən bələd olması ölkəmizin maraqlarının bütün səviyyələrdə etibarlı şəkildə qorunmasına təminat verir.

Yeri gəlmişkən, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Avropa İttifaqı ilə əlaqələri indiyədək iqtisadi və siyasi islahatlara dəstək, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı, habelə digər bu kimi müxtəlif çərçivələrdə inkişaf etdirib. Ölkəmizin regiondakı tranzit mövqeyi, Avropa və Asiyanın quru və hava nəqliyyatı yollarının kəsişməsində yerləşməsi, eləcə də Avrasiyanın nəqliyyat qovşağı rolunu oynaması onu Avropa İttifaqı üçün cəlbedici bir dövlətə çevirib.

Xarici ekspertlər, dünyanın aparıcı siyasi təhlil mərkəzləri tərəfindən Azərbaycanda müşahidə edilən sabitliyi, dövlətimizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətinin genişlənməsini, ölkənin siyasi rəhbərliyinin çevik və tarazlı diplomatiyaya malik olmasını hər zaman "imkanlar pəncərəsi" kimi dəyərləndirilib.

Rəsmi Bakı Avropa İttifaqı ilə münasibətlərə həmişə xüsusi diqqət yetirir. Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə müntəzəm dialoq aparır. Prezident İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, Avropa İttifaqı ölkəmiz üçün yaxın tərəfdaşdır. "Biz uzun illərdir müxtəlif sahələrdə işləyirik. Gündəlik çox genişdir və bizim güclü siyasi təmaslarımız əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin demək olar ki, 40 faizi Avropa İttifaqı ilə aparılır.

Beləliklə, Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib. Beləliklə, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir. Düşünürəm ki, bu, bizim hökumətimizin çox böyük nailiyyətidir. Bu, həmçinin əməkdaşlıq üçün əlavə imkanlar yaradır".

Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan tərəfindən başlanan və Avropa İttifaqının, o cümlədən, ölkəmizin tərəfdaşlarının dəstəklədiyi enerji layihələri sırasında xüsusilə Cənub Qaz Dəhlizi layihəsi mühüm önəm daşıyır. Başqa sözlə, respublikamız neft və qaz ehtiyatlarını tədarük etməklə, təkcə regionda deyil, həm də Avropa İttifaqının cənubunda enerji təhlükəsizliyinin təmin olunmasında həlledici rol oynayır.

Uzun müddətdir ki, enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünyada ən aktual müzakirə mövzusudur. Hətta enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas tərkib hissələrindən biri kimi nəzərdən keçirilir. Elə buna görədir ki, son onilliklərdə iqtisadi və siyasi məzmunlu beynəlxalq konfransların gündəliyinin başlıca müzakirə predmetlərindən biri enerji təhlükəsizliyi ilə bağlı olur. Xüsusən Avropa dövlətləri tərəfindən öz enerji təhlükəsizliklərinin daha yüksək səviyyədə təmin olunmasına, bu məqsədlə alternativ mənbələrdən enerji dəhlizlərinin yaradılmasına ehtiyac duyulur.

Düzdür, son dövrlərdə bu məqsədlə müxtəlif təşəbbüslər ortaya atılıb. Lakin onların hamısı siyasi və iqtisadi iradənin olmaması səbəbindən kağız üzərində qalıb. Artıq tam gücü ilə fəaliyyət göstərən Cənub Qaz Dəhlizi məhz Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin siyasi iradəsi və qətiyyəti nəticəsində reallığa çevrilən və Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən mühüm və böyük enerji infrastrukturu kimi tanınıb.

Cənub Qaz Dəhlizinin həyata vəsiqə alması bir çox mərhələlərdən keçib. İllər əvvəl bu layihənin reallaşması bəzilərinə qeyri-mümkün görünüb. Lakin İlham Əliyevin müdrikliyi və siyasi iradəsi, layihə iştirakçıları arasında düzgün koordinasiyanın təşkili, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq, Avropa İttifaqının siyasi dəstəyinin təmin olunması bu layihənin hər bir mərhələsinin uğurla tamamlanmasını gerçəkləşdirib.

Qeyd edək ki, hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetrdir. TAP vasitəsilə Avropaya gündəlik 28 milyon kubmetrdən çox qaz verilir.

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizinin mühüm önəm daşıması xanım Prezident Ursula Fon der Lyayenin bəyanatında da öz ifadəsini tapıb: "Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu Memorandum vasitəsilə biz Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə Rusiyadan qaz təchizatının həcmini azaldacağıq və Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik".

Onu da qeyd edək ki, xanım Prezident Ursula Fon der Lyayen bəyanatında Azərbaycanın bərpaolunan enerji sahəsində nəhəng potensial ilə diqqət çəkdiyini, xüsusilə də Xəzər dənizinin külək enerjisinə və "yaşıl" hidrogenə malik olduğunu bildirib. İmzalanan Anlaşma Memorandumu vasitəsilə həmin sahədə əməkdaşlığın möhkəm təməlinin qoyulduğunu, Azərbaycanın yanacaq növlərinin təchizatçısı olmaqla yanaşı, tədricən Avropa İttifaqı üçün bərpaolunan enerji növlərinin təchiz edən mühüm və etibarlı tərəfdaşa çevriləcəyini də vurğulayıb.

Nəhayət, xanım Prezident Ursula Fon der Lyayen bəyanatında onu da qeyd edib ki, qaz sahəsindəki əməkdaşlıq iqlimlə bağlı tərəflərin məsuliyyəti ilə uzlaşmalıdır. Məsələn, buraya metan qazının tullantıları da daxildir. Memorandum bütün qaz təchizatı zənciri boyu metan qazının tullantılarının azaldılması ilə bağlı öhdəlik nəzərdə tutur. Azərbaycan da qlobal metan öhdəliyinə qoşulmağa dəvət edilib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***